TƏNQİD

Vaqif YUSİFLİ

# Ədəbi fraqmentlər: şair, gilənar yarpağı, payız, bir də o qız...



Şair, gilənar yarpağı, payız, bir də o qız... O, iş otağının pəncərəsinə özünü çırpan gilənar yapaqlarını səsindən və qoxusundan tanıyır. Gilənar yarpaqları duyğuların payız ovqatını gətirir, "payızı gilənar yarpaqlarıyla sevər şair, şairi gilənar yarpaqlarıyla dindirər payız". Və beləliklə, şair gilənar yarpaqlarına, onların yaratdığı təbii ahəngə qoşulur, hər axşamçağı yarpaqlara şeir deyir, saplağı saralan yarpaqları sayır, balaca gilənar öz yarpaqlarıyla payıza rəngarəng çələng toxuyur. "Hamı uşaq kimi sevinər payıza" – şairin ağac, yarpaq və təbiət sevgisi buradaca bitərdi. Amma şeirdəki metafora bundan sonra gəlir:

Mən də bir gün köçəcəm payıza,
mən də bir gün gilənar yarpağı olacam.
Sevənlərim yağışa dönəcək o gün,
qovuşa bilmədiyim o qız yağacaq birinci.
Rəngbərəng damlalar qonacaq sinəmə,
muncuq-muncuq, incə-incə.

Saçları gilənar rəngində bir qız
şeirlərimdə axtaracaq özünü.
Gilənar boyalı dodaqlarında
pıçıltıyla diriləcək misralar –
payızı gilənar yrpaqlarıyla sevər şair,
şairi gilənar yarpaqlarıyla
dindirər payız.

"Çevrilmə" – metafora baş tutdu. Şair Elxan Yurdoğlunun bir çox şeirləri onun təbiət sevgisindən yaranır – bu yaranış ənənəvi vəsf və tərənnümdən uzaq poetik məna missiyasını reallaşdırır. Gilənar yarpaqlarına, payıza vurğunluğun metaforası şairin "saçları gilənar rəngində bir qız"a sevgisidir.

ElxanYurdoğlu payızı və payızın yaratdığı duyğular mənzərəsini şeirlərində əks etdirir və onun payız sevgisi hətta "Səni payız kimi sevirəm, qadın…" şeirində, necə deyərlər, şahə qalxır: "Məndən yaz sevgisi ummaqdan əl çək – Səni payız kimi sevirəm, qadın. Mən sənə payızda vuruldum deyə, Səni payız kimi sevirəm, qadın". Payızı o qədər çox sevir ki: "Qurban olum, payız, Gedək bizdə qalaq" deyir.Və bir də "Tərk edilmiş hüznlü qadın-payız" şeiri. Payızı hüznlü qadınlara oxşatmağı ilk dəfə Elxanın şeirində gördük.

Elxan Yurdoğlu lövhə, mənzərə yaratmağa çox meyillidir. Amma bu lövhələr həm də onun daxilindəki duyğuların intibahıdır:

Payız silkələdi budaqlarımı,
Dostlar yarpaq-yarpaq töküldü məndən.
Fələyin ruzgarı əsdi, adamlar
Daş-daş, torpaq-torpaq töküldü məndən.

O, Naxçıvana-doğulduğu torpağa həsr etdiyi şeirlərində də orijinal bir yol seçir: "Addım-addım gəzdim bu şəhəri, Gül-gül qoxladım, Qucaq-qucaq sevdim, Ağac-ağac sevdim bu şəhəri, Budaq-budaq sarıldım, Yarpaq-yarpaq sevdim" deyir.

Elxan Yurdoğlu təbii şairdir və bu təbiiliyi onun sözə münasibətində aydın hiss edirik. "Doğma kənddə uşaqlıq" şeirində o, sözün yaratdığı təbiiliyə güvənir, Şəhriyar yolunu seçir. Xatirələr işığında yol gedir. Bu yol onu "Kənddə gecə düşüncələri"nə aparır:

Qızımın üzündə ayın şöləsi,
Yuxusunda göyün ulduz şələsi.
Kəndə layla çalan qurbağa səsi
Yatıra bilməyir uşaqlığımı.

Ümumiyyətlə, Elxan Yurdoğlunun şeirlərində xatirə, yaddaşdan gələn silinməz izlər diqqəti xüsusilə cəlb edir:

Mən indi
içində gizlədiyin sevgim boydayam,
sən indi
göy qurşağı heyrətimin uşaqlıq sevincisən.

Unudulmayan bir sevgi xatirəsini bundan yaxşı ifadə etmək olarmı? Onun sevgi şeirlərini də, əslində, xatirələrlə təsnif etmək olar: unutmamaq və unudulmamaq, ayrılıq və bundan doğan həsrət, sevgi və sevgisizlik. “Sən yoxsan, Ay da yoxdur, Hər tərəf kömür kimi”. Sonra: “Sinəm çalın-çarpaz dağ, Sislə, çənlə doluyam. Sənsizlik neylər mənə, Xatirənlə doluyam”. Sonra: “Sənə gəldim, səndə qaldı Ürək… Əmanətdi... Gedirəm. Candan çıxan ruhlar kimi Getmək... Cəsarətdi… Gedirəm”. Sonra: “Adın şirinlik idi dodaq-dilə, xatırla! Gecə hərdən Aya bax və əl elə, xatırla”.

Elxan Yurdoğlu şeirlər kitabının adını “Ulduz çoxluğu qədər təklik” qoyub (2018). Təkliklə tənhalıq arasında məsafə o qədər də uzaq deyil. Ulduzların hər biri təkdi, yerdən baxanda bir-birinə yaxındılar, amma belə deyil. Hər bir ulduz səma ucalığında təkdi, tənhadı. Elxan Yurdoğlu da fərd etibarilə təkdir və həm də tənhadır”, – deyə düşünüb kitabı əlimə aldım. Əli Kərimin “Tənhalıq boşluq deyil-Səni gözləyən varsa; Doludur ümid günəşilə, Həsrət ayparasıyla… Kövrək qəmin ala-toranıyla”. Və şeirinin sonunda “Tənhalıq istəyirəm – Böyük, dərin, dolu tənhalıq” misralarını xatırladım. Müqayisə yerinə düşür, deyim ki, Elxan Yurdoğlunun şeirlərində də təklik və tənhalıq çalarları güclüdür. “Ulduz” jurnalında (2018, iyun) ona belə bir sual verilib: “Şeirlərini bir neçə sözlə ifadə edə bilərsən?”. O da belə bir cavab verib: “– Darıxmaq, gilənar, payız, kənd, yasəmən”. Bunu da qeyd edim ki, Elxan Yurdoğlunun təkliyi – tənhalığı məhz o “böyük, dərin, dolu” tənhalıq kimidir. “Yay axşamında darıxmaq” şeirini misal gətirə bilərik:

Gilənar ağacının altıydı mənim dünyam –
Parlayan ulduzlardı ala-mor gilənarlar.
Yaşamaq gözəl hissdi, yaşamaq gözəl hissdi,
Biləsən ki, hardasa səninçün darıxan var.

Başqa bir şeirində (“Payızı yaşayan bir yerin ola”) Elxan Yurdoğlu tənhalığın rəsmini çəkir:

Tənha skamyalar tək adamların
Sevgi günlərinin intihar yeri.
Səni ora dartar hey addımların,
Sızıldar könlündə intizar yeri.

Onun şeirlərinin poetik boyalarından, bədii təsvir vasitələrindən də söz aça bilərəm. “Yağışdan sonrakı torpaq iyi”ndən, doğrudan da, torpaq (özü də Naxçıvan torpağı) qoxusu gəlir. “35 yaşın şeiri”ndə nağıllaşan uşaqlıq və ilk gənclik illərinin xatirələri dilə gəlir. Heç nəyi gizlətmir: “Üstündən on il keçsə də, o vaxtdan içimdə 25 yaşında gənc bir Elxan yaşayır”. “Rəssam qadın” şeirində isə rəssam Ülviyyə Həmzəyevanın rəsmlərini sözlə rəngin vəhdətinə çevirməyə çalışır: “Rəngsiz çərçivədə rəngli bir əsər”. Ən yaxşı şeirlərindən biri “Çərpələng”dir. Və bir də “O qız, bir də gecə dördün yağışı”, Könlümün pərdəsini sığallayır nəfəsin, Gecənin düz dördüdü, ruhuma yağış yağır”.

Elxan Yurdoğlu artıq ədəbi gəncliyini başa vurur və qarşıda, əlbəttə, qələmə aldığı mövzuların daha kamil və poetik nümunələrini yaratmaq və həmçinin öz ürəyinin pəncərəsindən dünənə daha geniş nəzərlərlə boylanmaq gərək…

## “HƏR GÜN YENİLƏNİR ÜRƏYİM”

Şeirləri ilə təzə tanış olduğum şairlərdən biri də Məhsəti Musadır. “Ulduz” jurnalında və “525-ci qəzet”də dərc olunan şeirləri təzə söz deməyə, fikir söyləməyə səslədi məni. Ədəbiyyatda “özünəməxsusluq” deyilən bir anlayış var, bunu poeziyaya şamil elədikdə bir çox mətləblərə baş vurmaq gərək. Ən başlıcası odur ki, şair gərək öz deyim tərzi, üslubu, yaşadığı hisslərin, duyğuların poetik ifadəsilə heç kimə bənzəməsin, Yeseninin dediyi kimi: “Bəli, şair olmaq odur ki, gərək Pozmayıb həyatın ilk qanununu, Öz damarlarından qanı çəkərək Vurub isidəsən özgə qanını. Qoy lap

qurbağanın nəğməsi olsun, dünyaya təzə bir nəğmə ver ancaq". Oxuduğum şeirlərindən məlum oldu ki, Məhsəti Musa bir kimsəni təkrara varmır və nə yazırsa, özünü, öz qəlbini ifadə edir.

Qadın yazarların mövzuları mənə tanışdır. Onların sevgidən yazmağı təbiidir. Çünki onlar sevgi hisslərini ifadə edəndə yalan danışmırlar. Onun adını götürdüyü ulu nənəsi Məhsəti xanım Gəncəvinin ən gözəl rübailəri elə sevgidən olub. Amma qadın yazarların, o cümlədən Məhsəti Musanın şeirlərini təkcə sevgi mövzusu ilə məhdudlaşdırmaq olmaz. Onun işıqla, payızla, qışla, günəşlə, çiçəklə bağlı şeirləri də var, hamısında da poeziya üçün təzə görünən misralar, bədii təsvir vasitələri diqqəti cəlb edir.

Məhsəti Musanın şeirlərinin əsas qəhrəmanı, yəni başlıca obrazı işıqdır. Hökmən o deyil ki, işığa aid bir şeir ola, amma şeirlərdə işığa, nura qalib gələn və şairi kədər bataqlığına sürükləyən qəm seli olmaya. Yalnız Saqif Zeynalın "Nəsə belə olmamalıydı" şeirinə cavabladığı bircə şeirdən başqa. Ən çox bəyəndiyim bir şeir – "Günəş girir yatağıma" – bütün işığıyla "Nəsə belə olmamalıydı" düşüncəsini yox edir. Amma elə o şeirdə də işıq həsrəti ifadə olunur. Əslində, o şeir işıqsızlığın inkarıdır.

Keçək "Günəş girir yatağıma" şeirinə.

Ətrafımda qaynaşan
Kiçik işıqları
Ovcuma yığıram,
Əzizləyirəm…

Bu "işıq oyunu" bütün şeir boyu davam edir. "Bir əli göyə, bir əli yerə tuşlanan" lirik qəhrəman Ayın kədərlə sürünməsini seyr edir. Amma səhər açılır:

Yaxasını avqusta açmış pəncərədən
Günəş girir ətağıma.
Otağıma dolaşmış nadinc işıq zərrələri
Sevinclə qışqırır,
Tanrı gülümsəyir.

Lirik "mən"lə onun xəyalları məhz təbiətlə, onun payızı, qışı ilə ünsiyyətdə, məhrəmlikdə, doğmalıqda reallaşır. Məhsəti Musanın – "kəpənək qanadlı bir qız"ın "qaşqabaqlı payız"a "gecik" deməsi əbəs deyilmiş.

Sizi and verirəm
Dan yerinin qızartısına,
Sizi and verirəm
Qağayıların təlaşlı çığırtısına,
Xəyallarımızı ürkütməyin,
Sevdiklərimizi öldurməyin,
Çiçəkləri soldurmayın.
Utansın zəngli saatlar,
Utansın ayrılıqlar,
Utansın payız...
XOŞBƏXTLİK sözünü
Dünənin alnına yazsın
Kəpənək qanadlı bir qız!

Təki çiçəklər solmasın, o çiçəklər ki "yayın son nəfəsinə aldanıb arzusunu gözündə boğar". Amma mənə "Qış mənzərəsi" şeiri daha xoş gəldi. Məhsəti Musa bu şeirdə həyatın kədərli lövhələrini rəsm edir, hıçqırıqlarla bəlli lövhələrini. "Səhərdir, Qar yağır". Müəllimə övladlarından ala bilmədiyi sevgini şagirdlərindən almağa tələsir. Sonra:

Əlində iki zənbil göy aparan ana
Bazarda satacaq onları,
Tələbə oğluna göndərəcək
Zəhmət ətirli,
Göyərti qoxulu pulları.

Bu şeirdə yağan qar simvolik məna daşıyır. Və kədərlidir bu lövhələr, amma həqiqətdir. Məhsəti Musanın şeirlərində bu kədərli səhnələr onun işığa, nura, Günəşə olan romantik duyğularını heçə endirmir. Çünki həyatın acı reallıqları da var, insanı qanadlandıran romantikası da. Miniatür bir şeirində yazır: "İçimizə çəkək ay işığını, Bürünək buludlara Və yumaq gözlərimizi".

Məhsəti Musanın şeirlərində bax beləcə zərif duyğular, incə hisslər bir-birini əvəz edir. Amma o zərifliyin, o incəliyin qəsdinə duran xəyanət, vəfasızlıq, sevgi duyğusundan məhrum daş ürəklilər də varmış. Məhsəti Musa da ayrılıq şeiri yazır, amma bu şeir yüz illərin ayrılıq şeirinə bənzəmir. "Səni bir az atam kimi sevdim –səni bir az Allah kimi sevdim, ilk sevgim, ilk inancım kimi". Bəs sonra?

Sən atamın və Allahımın
birləşmiş üzü kimi

hopdun canıma..
İndi çiyinlərimdə atam boyda,
Ürəyimdə Alllah boyda ağırlıq var.
Sən nə Allahım ola bildin,
nə də ki atam…
Tutma özgənin yerini,
get məndən,
get, yad adam!

Bu, yeni, müasir çeşidli sevgi şeiridir.

Məhsəti Musa "Lövhələr" adlı kiçik şeirlərinin birində yazır: "Mənim ürəyim sevgim boyda". Amma mən deyirəm ki, onun ürəyi şeirləri boydadır. Arzum budur ki, o ürəyin tutumu daha da böyüsün, genişlənsin, müasir poeziyamızın xəritəsində öz yerini tutsun.

## NARINGÜLÜN NƏSRİ

Mən Narıngülü şair kimi tanımış və sevmişəm. Bu sevgi bir tənqidçinin bir şairin şeirlərinə, bu şeirlərin yaşarılığına inamın özü idi. Onun 2004-cü ildə nəşr olunan kitabına son sözdə yazmışdım ki: "Məncə, onun adı ilə şeirləri arasında bir oxşarlıq, qohumluq var. Şeirləri də zərif hisslərdən yoğrulub, bəziləri hisslərin rəsmidir.

Gözümün yaşıyla od söndürəndən
Alovdan keçirəm, daha yanmıram.
Kiminlə istəsən, keç gözlərimdən
Onsuz da mən səni ta qısqanmıram.

Bu misralarda Füzulilikdən zərrə görürəm. Və Narıngülə yeganə məsləhətim: Füzulini sevsin… Mən onun bu şeirləri barədə bircə kəlmə də yazmıram, bu şeirləri oxuduğum zaman aldığım estetik həzzi bir kimsə ilə bölüşmürəm. Qoy Narıngül xanım hələ yazsın, sözlə zərif-zərif oyunlar qursun, amma hər şeirini yazıb qurtardıqdan sonra içindəki narahatlıq onu təzə bir şeirə çəksin". "İşıqda adiləşmək qorxusu" adlı o şeirlər kitabı haqqında ayrıca resenziya da yazdım. O resenziyada Narıngülün bir şair kimi özünəməxsusluğundan söz açdım. "Qadın da ağac kimidir" ikinci şeirlər kitabında da Narıngül öz yoluna davam edir, yeni poetik düşüncələri ilə diqqəti cəlb edir. Həmin kitabda ön sözlə çıxış edən ustad Fikrət Qoca yazır: "Narıngülün şeirləri sözün əsl mənasında, yenidir. Onun şeirləri, yeni düşüncə tərzi məni özümə qaytardı".

Amma bu yazıda mən Narıngül Nadirin şeirləri haqqında söz açmayacağam. Çünki yeni bir şeirlər kitabını gözlədiyim halda (mətbuatda çoxdandır təzə şeirləri ilə rastlaşmıram) Narıngülün "Günəş üzlü qadın" povestlər, hekayələr kitabı ("Elm və təhsil", 2020) çapdan çıxdı. Burada təəccüblü bir halət yox. Şairlərimiz var ki, nəsr əsərləri də yazırlar, amma hər şairdən əsl nasir kimi söz açmaq mümkün deyil. Bəs Narıngül necə? Onun nəsrə keçidi alınırmı? İndi bu suala cavab vermək istəyirəm.

"Günəş üzlü qadın" kitabında Narıngülün üç povesti və on üç hekayəsi cəm olub. Onun nəsr təhkiyəsi, məhz nəsrə məxsus deyim, ifadə tərzi, obraz yaratmaq, bu obrazlarla həyat həqiqətlərini əks etdirmək çabaları nəzərə çarpır. O buna nail olurmu? Şeirdə daxili duyğular, səni tərpədən, həyəcanlandıran hisslər hakimdir, şair, əslində, özünü ifadə edir, ürəyinin pəncərəsindən boylanır. Nəsrdə isə lirikadan fərqli olaraq, epik manera ön plana keçir. Hadisələr, real insan obrazları, süjet xətti, bitkin kompozisiya… bütün bunlar nəsrin janr xüsusiyyətləridir. Burada nəql etmək, tipik xarakterlər təsvir etmək mühüm şərtlərdən biridir. Narıngül bütün bunlara əməl etməyə, özünü bir nasir kimi də sübuta yetirməyə can atır.

Onun povest və hekayələrində iki mühüm amil aparıcıdır – hadisələr və yaratdığı insan obrazları. Bunların vəhdəti, yəni təsvir edilən hadisələrdə insan obrazlarının real və inandırıcı təcəssümü əsasdır. Çünki nəsr əsəri təkcə hadisələr üzərində qurulmur. Hadisənin özünə gəldikdə isə, o da tipik olmalıdır, yəni bu hadisə reallığı əks etdirməlidir. Narıngül Nadirin povestlərində təsvir olunan hadisələrlə insan obrazları vəhdət təşkil edirmi? "Günəş üzlü qadın" povestində maraqlı hadisələr diqqəti cəlb edir. Qadın-kişi münasibətlərini özündə əks etdirən bu povestdə mənəvi-əxlaqi bir məsələ qoyulub – kişi sevgilisinin başqa bir kişiyə meyil etdiyini görür və qadından da, o varlı kişidən də intiqam almaq istəyir. Burada cinslərin (kişilərin və qadının) bir-birinə münasibətində sevgi yoxdur. Sadəcə, hər iki kişinin eşq macərası diqqəti cəlb edir. "Sevgili kişi" intiqam almağa yollanarkən özünü dənizə atan bir qadını intihardan xilas edir,